**UOT 76**

***Qüddəsər İbrahimov***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:* ibrahimov.227@inbox.ru**

# QƏBƏLƏ FUTBOL KLUBUNUN KORPORATİV STİLİ

**Xülasə:** Təqdim olunan məqalədə Qəbələ futbol klubunun korporativ stili tədqiq olunur. Müəllif klubun geyimi və embleminin dizayn həlli barədə məlumat verir. Qeyd olunur ki, Qəbələ futbol klubunun hal-hazırda istifadə etdiyi emblem cəmiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Loqoda istifadə olunan rəng və elementlər komandanın müasir dəyərlər və milli köklərə əsaslandığını və daima zirvələrdə olmağı qarşısına məqsəd qoyduğunu göstərir.

**Açar sözlər:** futbol, idman, ölkə, çempionat, komanda, turnir.

Azərbaycanın ümummilli lideri, mərhum ölkə başçısı Heydər Əliyev ölkə idmanının, o cümlədən, futbolun inkişafı üçün böyük əmək sərf edib. Respublikamıza rəhbərlik etdiyi bütün illər ərzində digər sahələrlə yanaşı idmanın, xüsusilə, futbolun inkişafına dəyərli töhfələr verən Heydər Əliyev, futbolçularımızın peşəkarlıq səviyyəsinin artırılmasını və sosial qayğılarının həll edilməsini daim diqqət mərkəzində saxlayıb.

Respublikamızın müstəqillik qazanması ilə Azərbaycan futbolu tarixində yeni səhifə başlayıb.1992-ci il martın 26-da AFFA (Azərbaycan Futbol Federasiyaları Assosiasiyası) təsis edilib. Futbol təşkilatımız 1994-cü ilin mayında UEFA-nın Vyanada keçirilən 22-ci konqresində UEFA-ya, 1994-cü ilin iyununda FİFA-nın Çikaqoda keçirilən 49-cu konqresində FİFA-ya üzv qəbul olunub. Bununlada milli komandalarımız dünya və Avropa çempionatlarında iştirak etmək imkanı qazanmışdır.

Prezident İlham Əliyev 2005-2015-ci illərdə Azərbaycan Respublikasinda futbolun inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında 2015-ci il oktyabrın 10-da, 1038 saylı sərəncam imzalıyıb. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və AFFA, Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin əlaqələndiricisi müəyyən edilib.

Qəbələ futbol klubu logosunun üstündə yaranma tarixinin 2005–ci ili göstərməsinə baxmayaraq klubun əsası 1995-ci ilin iyulun 3-də qoyulub. Keçmiş vaxtlarda şəhəri Tütün Fermentasiya Zavodunun “TFZ“ komandası təmsil edirdi. Tarixə nəzər salsaq klubun ilk adı “Göy Göl” olduğunu görərik. Yarıda qalmış olsa

da 2005-ci ildən etibarən klub fəaliyyətini davam etdirməyə başlayıb. Klubun ilk adında fikir verdikdə, komandanın əvvəllər Xanlar rayonunu təmsil etdiyini anlamış olarıq. Yarandığı vaxtdan etibarən heyətinə bir çox məşhur futbolçu toplayan klub, Azərbaycanda keçirilən çempionatların birinci dəstəsində çıxış etmişdir. Klubun ilk adı bir müddət keçdikdən sonra dəyişdi. "Göygöl" adı "Gilan"la 2005-ci ilin may ayının 4-də əvəz edildi. Həmin mövsümdə keçirilən çempionatın sonunda isə komanda birinci dəstənin qalibi olaraq Azərbaycan çempionatının yüksək liqasına iştirak etmək hüququ qazanıb. 2006-cı ilin avqust ayında birinci liqada ilk oyunlarını keçirmə ərəfəsində "Gilan" Xanlar rayonundan Qəbələyə köçürülüb. Çempionatın davamında isə həmin müddətdən etibarən Qəbələ şəhərini təmsil etməyə başlayıb. Yüksək liqada keçirdiyi ilk oyunlarda uğur qazanmaqdan uzaq olan Gilan klubunda ilk dəyişiklik baş məşqçisi postunda edilib. Komanda birinci liqada keçirdiyi ilk, 2006/2007-ci il çempionatını 11-ci sırada başa çatdırıb. Qarşısına qoyduğu məqsədə, yüksək liqada qalmağa nail olan "Gilan"ın adı növbəti mövsüm ərəfəsində yenə də dəyişib. 2007-ci il avqust ayının 31-də "Gilan" PFK adı "Qəbələ" PFK ilə dəyişdirilib. Hal-hazırda Qəbələ futbol klubu Azərbaycan çempionatının nüfuzlu klublarından birinə çevrilib.

AFFA rəhbərliyin qərarına əsasən, 2013-cü ildən etibarən Premyer Liqa klublarının 19 yaşlı komandaları arasında da çempionat keçirilir. İlk belə yarış 2013-cü ilin mart-may aylarında gərçəkləşib. Fərəhli haldır ki, U-19-lar arasında birinci Azərbaycan çempionatının qalibi məhz Qəbələ olub. Qəbələnin 19 yaşlılardan ibarət komandasının formalaşdırılmasıda məhz həmin dövrə təsadüf edir. Məqsəd, peşəkar komandaların heyətinə düşmək istəyən gənc futbolçulara dəstək olmaq, 19 yaşlılardan ibarət milli komandanın hazırlığını daha da yüksəltməkdir. Heyət Qəbələ Futbol Akademiyasının 17 yaşlı futbolçulardan və əvəzedici komandada oynayan gənclərdən təşkil olunub. Yeni yaradılan Qəbələ U-19 komandasının hazırlığı klubun əvəzedicilərdən ibarət komandasının məşqçilər korpusuna tapşırılıb.

Qəbələ klubu Azərbaycan futbolunda etdiyi dəyişiklər və yeniliklərlə də Azərbaycan futbolu tarixinin yaddaşına düşüb. 2009-cu ildə Azərbaycanda ilk futbol akademiyası Qəbələ futbol klubuna məxsus olması ilə yanaşı, bu addımı atmaqla ölkədəki bacarıqlı və istedadlı futbolçuları kəşf edib Azərbaycan futboluna qazandırmaq, onların peşəkar futbolçu kimi yetişdirilərək gələcəkdə Azərbaycan milli komandasının və Qəbələ Futbol Klubunun uğurlar qazanması missiyasını öz üzərinə götürüb.

Qəbələ Futbol Klubu təkcə əsas komandanın uğurları ilə deyil, akademiyası və digər idman növləri ilə də sözünü deməyi bacarıb. Uşaq futbolunun inkişafını daim diqqət mərkəzində saxlayan, bu istiqamətdə işlər görən Qəbələ İdman Klubu irihəcmli layihələr həyata keçirir. Belə layihələrdən biri ənənəvi Qəbələ Kuboku turniridir. Bu, ölkəmizdə aşağı yaş qrupları üzrə klublar arasında keçirilən ilk beynəlxalq turnirdir.

Qəbələ futbol klubu oyunlarını 3500 tutuma malik Qəbələ şəhər stadionunda keçirir. Stadionun çoxdan tikilməsinə baxmayaraq 2011-ci ildə burada yenidən

qurma işləri aparılıb. Stadionda drenaj sistemi qurulub. Güclu yağış yağsa belə stadionun içərisində gölməçə və ya çökmə problemi yaşanmır. Bundan başqa əsas stadiondan əlavə məşq meydançaları da təbii ot örtüyu ilə təchiz olunub. Stadionun işıqlandırma sistemidə yüksək səviyyədədir. Hər oyundan qabaq projektorlar yoxlanılır, bundan başqa işıqların sönəcəyi halda meydanın işıqlandırılması üçün generatorlardan istifadə olunur. Meydançanın işarələnməsi isə hər oyundan qabaq həyata keçirilir. Qəbələ şəhər stadionunu dağların və gözəl mənzərənin əhatə etməsi stadionu dahada mükəmməlləşdirir.

Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib. Son illər ölkəmizdə dünya və Avropa çempionatları, nüfuzlu beynəlxalq turnirlərin təşkili adi hal alıb. İdmançılarımızın beynəlxalq yarışlardakı uğurları ildən-ilə artan templə gedir. Bütün bunlar Azərbaycanda idmana dövlət tərəfindən göstərilən diqqət və qayğının bariz nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra ölkəmizdə beynəlxalq olimpiya hərəkatı geniş vüsət aldı. Qəbələ İdman Klubu bu hərəkatda fəal iştirak edir və ölkə idmanının inkişafına öz töhfələrini verməyə çalışır.

Qəbələ İdman Klubunun əsas bölmələrindən olan futbol komandası 2005-ci ildən etibarən Azərbaycan çempionatlarında iştirak edir. Qəbələ Futbol Klubu uzunmüddətli plan və strategiya hazırlayıb. Bu planın bir hissəsi olaraq, uşaq futboluna xüsusi diqqət ayırılır. Məhz buna görədə Azərbaycanda akademiya yaradan ilk klub məhz Qəbələ olub. Qəbələnin azyaşlı futbolçuları bir çox uğurlara imza atıblar. Aşağı yaş qruplarından ibarət komandalar Azərbaycan çempionatında daima medallar uğrunda mübarizə aparır.

Qəbələ klubu bazasına və infrastrukturuna görə Azərbaycanın ən yaxşı klublarından biri, bəlkə də birincisidir. Ölkəmizin ən keyfiyyətli ot örtüyünə malik meydançaları məhz Qəbələdə yerləşir. Meydançaların ot örtüyü FİFA sertifikatına malik mütəxəssislər tərəfindən müasir texnologiyalarla yerləşdirilir, xüsusi qayğı göstərilir. Bütövlükdə, Qəbələ FK-ya məxsus bazada 5 tamölçülü təbii, 1 ədəd tamölçülü, 2 ədəd süni örtüklü məşq və 1 qum meydançası vardır.

Qəbələ futbol klubunun ev forması qırmızı, qara rənglərdən ibarətdir. Formanın ön hissəsində klubun hal-hazırkı spronsorunun adı yazılıb. Yazının üzərindəki qızmızı-qara rənglərdən ibarət damalar diqqəti cəlb edir. Formanın yuxarı-sol hissəsində klubun emblemi, sağ hissəsində isə formanı hazırlayan firmanın adı yazılıb.

Azərbaycan idmanında özünəməxsus çəkisi olan Qəbələ İdman Klubu istər respublikamızda, istərsə də ölkə hüdudlarından kənarda kifayət qədər populyardır. Buna görə də nüfuzlu şirkətlər, qurumlar Qəbələ İdman Klubu ilə əməkdaşlıq etməyə səy göstərir. Hazırda Qəbələ İdman Klubunun bir neçə tərəfdaşı var. Bu şirkət və ya qurumların adları Qəbələ Futbol Klubunun formalarında qeyd olunur.

İdman geyimləri üzrə İspaniyanın məşhur brendi olan “JOMA” da Qəbələ klubunun tərəfdaşlarındandır. Qəbələ FK-nın komandaları, Qəbələ Futbol Akademiyası, eləcə də, Qəbələ İK-nın nəzdində fəaliyyət göstərən digər idman

növlərinin təmsilçiləri məhz JOMA şirkətinin istehsal etdiyi geyimlərdən yararlanır. Tərəflər arasında müqavilə 2013-2014-cü il mövsümünü əhatə edirdi. Əməkdaşlıq uğurlu olduğu üçün müqavilənin müddəti uzadıldı. Qeyd etmək lazımdır ki, JOMA həm komanda, həm də fərdi idman növlərində geyimlər, ayaqqabılar və aksessuarlar istehsalı ilə məşğuldur.

Müasir futbolda tibb, sağlamlıq anlayışlarının çox vacib olduğunu nəzərə alan Qəbələ İK bu istiqamətdə də işini peşəkarcasına qurub. Klubla Türkiyənin aparıcı tibb mərkəzlərindən olan Acıbadem Hospitals Group arasında tərəfdaşlıq müqaviləsi 2011-ci ilin dekabrında imzalanıb. Müqavilənin şərtlərinə əsasən, Acıbadem Qəbələ İK-nın üzvlərinə tibbi xidmətlər göstərir. İdmançılar buraya daxil olan tibb müəssisələrində müayinədən keçir, ehtiyac yarandığı təqdirdə, burada müalicə olunurlar. Acıbadem 1991-ci ildən Türkiyə ilə yanaşı beynəlxalq arenada da yüksək standartlara uyğun tibbi xidmət göstərməkdədir. Hazırda Acıbadem 16 tam təchizatlı xəstəxana və 8 poliklinikadan ibarətdir, personalının sayı isə 13 mindən çoxdur.

Azərbaycan futbolunda klublarımızın emblemlərinə fikir versək qənaətbəxş qiymətləndirmək olar. Heç biri kor-koranə yaradılmış emblemlər deyil. (atlar, neft buruğu, gəmi lövbəri, dağ və s.). Xaricdəki futbolsevərlər ölkəmizin klublarına diqqət yetirsələr emblemləri maraqla qarşılaya bilərlər.

Qəbələ futbol klubu ilk yarandığı vaxtlarda klubun emblemi sadə olsada zaman keçdikcə emblemində daha yaxşı və müasir dəyişikliklər oldu. Klub ilk yarandığında hazırlanan emblemi ilə hal-hazırda olan embleminə fikir verdikdə, emblemin kənar hissələri eyni olaraq qalsada üzərində və yazılardakı dəyişikliklər dahada gözəgəlimli olmasının əsas səbəbidir. Emblemin üzərində edilən ən əsas dəyişikliklərdən biri isə emblemin üzərində olan dağ rəsminin əvvəlkinə baxdıqda daha aydın və gözəl görünməsidir.

Hal-hazırda olan müasir emblemlərin fərqli olmasının ən əsas səbəbi onun dizaynı və rənglərin uyğunluğudur. Bir çox futbol klubunun emblemlərində ən az 2 və ya 3 rəngdən istifadə olunub. Emblemlərində 3 rəngdən artıq istifadə edən klubların sayıda az deyil. Buna baxmayaraq 10 futbol klubunda 9-u emblemlərinin rəng seçimində 3-dən artıq rəng istifadəsinə üstünlük vermirlər. Qəbələ futbol klubu da 3-dən artıq rəng seçimi etməyən klublar arasındadır.

Demək olar ki, hər bir klubun emblemlərinin üzərində klubun tarixini və ya şəhəri əks etdirən mənaları olur. Bir çox futbol klubunun emblemlərinin üzərin baxdıqda bunu anlamaq mümkündür. Lakin elə klublarda var ki, klubun emleminin üzərindəki mənanı anlamaq çox çətindir. Buna misal olaraq dünyanın ən güclü klublarından olan Barcelona, Real Madrid, Bayern Munchen və s. kimi klubları göstərmək olar. Qəbələ futbol klubunun emblemindəki mənanı rahatlıqla anlamaq mümkündür. Belə ki, emblemin üzərindəki dağlar Qəbələ şəhərinin dağlarını və gözəlliyini əks etdirir.

Futbol klublarının emblemlərinin üzərində dəyişməyən tək şey klubun yaranma ilidir. Qəbələ futbol klubunun hal-hazırda istifadə etdiyi emblem cəmiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Loqoda istifadə olunan rəng və

elementlər komandanın müasir dəyərlər və milli köklərə əsaslandığını və daima zirvələrdə olmağı qarşısına məqsəd qoyduğunu göstərir.

## Ədəbiyyat:

1. Əliyev A.,Rəfiyev İ., Süleymanov M. Qəbələ futbol klubu kataloqu // Kataloq "Qəbələ İK", 2014, səh.131.
2. Hüseynov F. /"Futbol Forum" qəzeti Azərbaycan nəşriyyatı, 2007, səh.12.
3. Hüseynov Ş."Bakı Sport" qəzeti, Azərbaycan nəşriyyatı, 2008, səh.8.
4.http://www.qebele-ih.gov.az/page/58.html
5.https://news.milli.az/sport/236558.html

**Гуддесер Ибрагимов**

**Корпоративный стиль футбольной команды Габала**

**Резюме**

В данной статье автор исследут корпоративный стиль футбольной команды Габала. Автор дает информацию об одежде и эмблеме команды. В статье отмечается, что нынешняя эмблема команды имеет удачное дизайнерское решение. Цвета и элементы использованные в лого отражают современые, а также национальные ценности.

**Ключевые слова**: Футбол, спорт, страна, чемпионат, клуб, турнир

**Guddasar Ibrahimov**

**Corporate style of the Gabala football team**

In this article, the author will explore the corporate style of the football team Gabala. The author gives information about the team's clothing and emblem. The article notes that the current emblem of the team has a successful design solution. The colors and elements used in the logo reflect modern as well as national values.

**Keywords**: football, sport, country, championship, team, tournament

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25.04.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 03.05. 2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 29.05. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mehriban Novruzova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**